**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№345/5** **30 iyun 2022-ci il**

**2022-ci ildə Şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığının təşkili ilə bağlı kursun tədris proqramı barədə**

Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 5.5-ci “Şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığının təşkili” bəndinin icrası ilə əlaqədar Palatanın Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) və Kadr hazırlığı idarəsi (E.Behbudova) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığının təşkili ilə bağlı kursun tədris proqramının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2022-ci ildə Şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığının təşkili ilə bağlı kursun tədris proqramı” təsdiq edilsin (əlavə olunur).
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində “Şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığının təşkili ilə bağlı kursun tədris proqramı”nın Palata üzvlərinə çatdırılması təmin edilsin.
3. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, bir həftə müddətində “Şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığının təşkili ilə bağlı kursun tədris proqramı”nı tədris edəcək təlimçi müəyyən edilsin və bu barədə məlumat rəhbərliyə təqdim edilsin.
4. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, üç gün müddətində bu qərarın və “Şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığının təşkili ilə bağlı kursun tədris proqramı”nın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**